

*Fəxri Müslüm*

## *Şəhid Kəşfiyyatçı Fədail Nadirovun əziz xatirəsinə*

Cəbhəyə çatmamış, şəhid olmamış,
Kövrək bir rəqsiylə yaddaşda qaldı.
Üzü gül açmışdı göylərə tərəf,
Ruhuyla danüzdə, obaşda qaldı.

Əllər qisas üçün duman sökürdü,
Bəxt, yığval, tərs düşmüş, zaman sökürdü,
Sanki, yeri, göyü şaman sökürdü,
Görü-görüntüsü,
Onu yola salan qardaşda qaldı.

Qartal utancından gözə dəymədi,
Düşmən iy bilib də, üzə dəymədi,
Dost, tanış o, cızan izə dəymədi,
Hər dağda, dərədə, hər daşda qaldı.

Sanki, toy, düyünə getməyi vardı,
Şəhid bir zirvədə bitməyi vardı,
Qızıl gülləleri,
Düşmənin gözünə dürtməyi vardı,
Tətiyi çəkdikcə hər başda qaldı.

Soyuq səngərlərdə ilan göyərdi,
Qarşıda, düşməndən, ölən, göyərdi,
Yad eldə eşidən, bilən göyərdi,
Yazıldı alnına, hər qaşda qaldı.

Bu qürur önündə sözün gücü az,
Kül altda çox qalan, közün gücü az,
Baş qatdı şərşəvə, özün gücü az,
Ağrısı ayaqda, bardaşda qaldı.

Cəbhəyə çatmamış, şəhid olmamış,
Kövrək bir rəqsiylə yaddaşda qaldı.
Üzü gül açmışdı göylərə tərəf,
Ruhuyla danüzdə, obaşda qaldı.

## *Belə*

Başımın üstündə vətən görünər,
Nə var, danüzündən, ertən görünər,
Dünəni, bu günü, dən-dən görünər,
Elə, şamanından, uludan belə.

Dərd alıb yadları, varıb, çıxammır,
Haqq da, səngər kimi, yarıb çıxammır,
Kini, zəncir-zəncir, qırıb çıxammır,
Düşdüyü acıdan, bəladan belə.

Könül yaylımlanıb, yayından keçər,
Hal-əhval dizüstə, oyundan keçər,
Payızın sonuncu ayından keçər,
Leysan yağışından, doludan belə.

Yalan yol aldıqca, haqqa, hesaba,
Qəzəbdən yoğrulur, bu el, bu oba,
Elə, böyüdkcə bu dərd, bu qada,
Gülündə hallanar, xalıdan belə.

Yada bax, çəp ağız, söz, əyri düşər,
Danışdıqca doğru, düz, əyri düşər,
Ocağı ocaq döy, köz əyri düşər,
Çırpılan Köçəri, Yallıdan belə.

Bir zorun gəlsə də, hər it, itbasar,
Ağzının yelini, daş, qaya kəsər,
Onsuz da, bozqurddan türkə meh əsər,
Çinin, çin səddindən, Boludan belə.

Bilirdim, bu təkər şinində durmaz,
Bir gün dəli ağıl, qınında durmaz,
Yada oxun çəkər, yayında durmaz,
Uca divarından, Qaladan belə.

Başımın üstündə vətən görünər,
Nə var, danüzündən, ertən görünər,
Dünəni, bu günü, dən-dən görünər,
Elə, şamanından, uludan belə.

## *Ağır-ağır*

Başqa cür doğacaq bu, Günəş sabah,
Ay, təzələnəcək, il, ağır-ağır.
Könlümüz cəng üstə havalanacaq,
Tutacaq yerini,
Ağıl, ağır-ağır, əl, ağır-ağır.

Birləşib bu yol, iz, turana gedər,
Səddkeçməz qalalar qurana, gedər,
Yovşanlı çölünə, arana gedər,
Od, ocaq tüstüsü, kül, ağır-ağır.

İndi, önümüzdə çox iş var, hələ,
Üz-üzə gəlmək var, görüş var, hələ,
Dayanıb, durmadıq, döyüş var, hələ,
Açılan hər cığır, yol, ağır-ağır.

Çoxunun kürkünə birə yeridi,
Çaşbaşdı, gözündə dərə yeridi,
Altından gəmisi, bərə yeridi,
Çəkmir öküzləri, kəl, ağır-ağır.

Sinə, gərməknən döy, qol, atmaqnan döy,
Tülkü tək, bir lağım, yol atmaqnan döy,
Dünyanı boşuna, aldatmaqnan döy,
Sən, çoxdan kölәsәn, gəl, ağır-ağır.

Zaman, ağac-ağac, payıza çaldı,
Həyat şifrələnmiş, yazıya, çaldı,
Çoxdan, bu, utarı, Asiya çaldı,
Ya qaç, qurtar, ya da,
Sarıl xislətinə, öl, ağır-ağır.

Çöküb bu torpağa qanımız, çəkir,
İstisin, soyuğun, canımız çəkir,
Yazı, Tanrıdandır, alnımız çəkir,
Yaşadır ruhmuzu,
Aləlvan laləsi, gül, ağır-ağır.

Başqa cür doğacaq bu, Günəş sabah,
Ay, təzələnəcək, il, ağır-ağır.
Könlümüz cəng üstə havalanacaq,
Tutacaq yerini,
Ağıl, ağır-ağır, əl, ağır-ağır.

## *Bu zəfər*

Bu zəfər gözləri necə tutdusa,
Dalana sığmadıq, tinə sığmadıq.
Bu ümid hər kəsdə,
Sanki, can isitdi, sevinc yaşatdı,
Dörd bir tərəfmizə, yönə sığmadıq.

Məhmətcik ac, susuz, o koldan, kosdan
İtburnu, kol armud,
Moruq dərə-dərə, savaş qazandı.
Gecələr yolları dizinə çəkdi,
Gündüzlər zəfəri, obaş qazandı.

Hər doğma qayanın qartal baxışı,
Sanki, hər əsgərə bir örnək idi.
Vətən onlar üçün sonuncu nəfəs,
Qırmızı xətt udu, bircə rəng idi.

Arxada gözləri qalmasın deyə,
Evindən, eşikdən,
Əvvəldən hallallıq alıb getdilər.
Sinir tarım-tarım, tarımlanmışdı,
Hirsinə, qəzəbə dolub getdilər.

Dünya bu savaşı həzm edəmmədi,
Təlimə çevirdi, məşqə çevirdi.
Bir çoxu sükuta qərq oldu biraz,
Bir çoxu dərdini,
Gizlədib içində, eşqə çevirdi.

Ayı da pusquda, gör necə ildi,
Armud ağacından meyvə dərməyə.
Oynayıb baş qatır daşla, divarla,
Yenidən könülə, gözə girməyə.
Adam da, çaş qalır, bu işə, gücə,
Bu oyun nə şahmat, nə, nərd kimidi.
Kürəyə saplanıb, nə saplanıbsa,
Nə, üz-üzə gəldi, nə, mərd kimidi.

Daha, ulağa da noxta kar etmir,
Çəkdin, ya çəkmədin, çortuna gedir.
O qədər artıb ki, yad sevdalısı,
Fürsət düşən kimi, dört yana gedir.

Otuz il yükümüz min dərd idisə,
İndi, gündəmlərdə gün olub getdik,
Zamanın içində, vaxtın içində,
Üyünüb dən kimi, un olub getdik.

İndi, Tanrı dağdan əsən bir mehə,
Qabaran dalğaya güvənc qalıbdı.
Elə, yaddaşmızda soy kökə bağlı,
Ulu bir qalaya güvənc qalıbdı.

Bu zəfər gözləri necə tutdusa,
Dalana sığmadıq, tinə sığmadıq.
Bu ümid hər kəsdə,
Sanki, can isitdi, sevinc yaşatdı,
Dörd bir tərəfmizə, yönə sığmadıq.

## *Daşınnam*

Könül, bulud-bulud, öz axarında,
Elə, yağışına, selə, daşınnam.
Hər zəfər marşında can körüklənər,
Ruh tutan ritminə, telə, daşınnam.

Nə yaxşı, bu yol, iz, Şuşadan keçdi,
Əzildi hər it, qurd, maşadan keçdi,
Arzu, əməlimiz başacan keçdi,
Bir xatun çiçəyə, gülə daşınnam.

Ötəgəndən keçdik, hər qatdan keçdik,
Üzü şərqə tərəf, Fəratdan keçdik,
Hər yürüş, göydəmir, nər atdan keçdik,
Böyük Turan adlı, elə daşınnam.

Anıt daşlarında yazım, nöqtəsiz,
Dənizdən, dənizə izim, nöqtəsiz,
Ruhmuzu yaşadan sazım, nöqtəsiz,
Qanın söz yaddaşı, dilə daşınnam.

Baxma əl, ayaqda, köpək oynayır,
İndi, dənizlərdə köpük oynayır,
İndi , güc oynayır, təpik oynayır,
Arazdan o yana,
Muğana daşınnam, milə daşınnam.

Dünyanın baxışı dəyişib indi,
Biraz əli, qolu, üyüşüb indi,
Biraz da, boz sözdən üşüyüb indi,
Yeni sabahlara, ilə daşınnam.

Könül, bulud-bulud, öz axarında,
Elə, yağışına, selə, daşınnam.
Hər zəfər marşında can körüklənər,
Ruh tutan ritminə, telə, daşınnam.

## *Qarabağın təmizlik duası*

O yerlərə it nəfəsi dəyibdi,
Meşələrin üst-başını yuyun siz.
Danüzünə bir "salavat çevirib",
Çiçəklərin göz yaşını yuyun siz.

Axar suda suya çəkin carlayın,
Gecələri Aya çəkin, carlayın,
Şamansayaq, qıya çəkin carlayın,
Qayasını, hər daşını yuyun siz.

İz qoyublar hər divara, hər daşa,
Xətt çəkiblər çalınçarpaz, baş-başa,
Əməlləri, gizlinləri, sirr, qoşa,
Şeytan üstə yaddaşını, yuyun siz.

Diz qoymayın nə böyrünə, nə yana,
Elə deyin duaları, su, ana,
Öz işini bəlkə qana, hər dana,
Bulaqların düz qaşını yuyun siz.

Saxta tarix, saxta yazı yazdılar,
Barmaqlayıb yaddaşı da pozdular,
Qədim bir iz, qədim bir söz yozdular,
Qaza-qaza, hər yaşını yuyun siz.

Kərəm olub, tərsalara uymayın,
Toxtaq olun,
Hər ayağı, tər sulara qoymayın,
Qaş-göz edib, ox atsa da, saymayın,
Eşqinizin,
Yüyənini, naxışını yuyun siz.

O yerlərə it nəfəsi dəyibdi,
Meşələrin üst-başını yuyun siz.
Danüzünə bir "salavat çevirib",
Çiçəklərin göz yaşını yuyun siz.

## *Hulusi Akar paşanın*

özül özgürlüyü bilgədən gələr
qədim uluslardan bölgədən gələr
səsi neçə neçə ölkədən gələr
Hulusi Akar paşanın

elə gündoğanı tanrı dağı var
qurdağız cənglərə bağlı bağı var
qalxan qılıncının solu sağı var
Hulusi Akar paşanın

Çanaqqala dimdik alnından keçər
ağrısı açısı canından keçər
neçə şəhid qanı
qarışıb qanına qanından keçər
Hulusi Akar paşanın

çəkinməz kimsədən sözü üzədi
hər işi əməli haqqa düzədi
yolu yolağası
yeni cızılacaq təzə izədi
Hulusi Akar paşanın

içində bir dərin dövlət yaşayar
içində türk adlı millət yaşayar
qüruru danüzə zəfər daşıyar
Hulusi Akar paşanın

özül özgürlüyü bilgədən gələr
qədim uluslardan bölgədən gələr
səsi neçə neçə ölkədən gələr
Hulusi Akar paşanın

## *Güləcək*

Açıldı havası, nə xoş, dağların,
Günəşdən güneyi, beli güləcək.
Kölgələr endikcə quzeyaşağı,
Şeh tutmuş çiçəyi, gülü güləcək.

Ay, yükün çəkdikcə, erkən, obaşdan,
Səs səda verəcək qayadan, daşdan,
Narın bir yağışla, sellə savaşdan,
Kəmərbel cığırı, yolu güləcək.

Könül oxşayacaq, dərəsi, düzü,
Çözüləcək bir-bir,
Alsına tutulmuş hər ayaq izi,
Alıb qucağına, yenə də, bizi,
Yamacı güləcək, yalı güləcək.

Ağ, ağ, ağaracaq, binələr bir-bir,
Ağaracaq illər, sənələr, bir-bir,
Hər ümid, bir uğur,
Eşqə qabardıqca, sinələr bir-bir,
Köksünün başında əli güləcək.

İndi, təbiət də, yaza bənd olub,
Meşə də, dağlara bazubənd olub,
Gül də, meh üstündə, naza bənd olub,
İndi, küləkləri, yeli güləcək.

Köpəklər ayağa, dizə kimiymiş,
Astara kimiymiş, üzə kimiymiş,
Aldığı nəfəsi duza kimiymiş,
Nə yaxşı, yurdumun,
Elatı güləcək, eli güləcək.

Açıldı havası, nə xoş, dağların,
Günəşdən güneyi, beli güləcək.
Kölgələr endikcə quzeyaşağı,
Şeh tutmuş çiçəyi, gülü güləcək.